Ədəbiyyat QƏZETİ №2 17 yanvar 2025-ci il 31

# Şərif KƏRİMLİ-70



Hörmətli Şərif Kərimli!

Sizi - Azərbaycan ədəbi mühitində nasir, publisist, naşir kimi tanınmış ziyalı olaraq 70 illiyiniz münasibətilə ürəkdən təbrik edirik.

1972-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə qəbul olanadək ədəbi, publisistlik fəaliyyətlə məşğul olduğunuzdan, təhsil illərində aldığınız nəzəri biliklərlə onları daha da zənginləşdirib, 1978-ci ildə əmək fəaliyyətinə başladığınız "Yazıçı" və "İşıq" nəşriyyatlarında, 1987-ci ildən 1989-cu ilədək "Gənclik" ("Molodost") jurnalında, daha sonra 1989-cu ildən ilk müstəqil mətbuat orqanı olan "Azərbaycan" qəzetində yüzlərlə ədəbiyyat, mətbuat həvəskarının yetişməsində müstəsna xidmətlər göstərmisiniz.

Ədəbi-bədii, publisistik yaradıcılığınızda təkcə Azərbaycanın ictimai-siyasi, sosial-mənəvi olaylarına işıq tutmaqla yanaşı, həyatınızın və yaradıcılığınızın əsas qayəsinə çevrilən Borçalı və Azərbaycan-Gürcüstan dostluğu ideyasını ölkəmizin və dünyanın nüfuzlu qəzetlərində - ("Novoe russkoe slovo" (ABŞ), "Nezavisimaya qazeta" (Rusiya), İslami Birlik" (İran), "Sabah" (Turkiyə), "Gürcüstan" (Gürcüstan) yazmış və təbliğ etmisiniz.

"Sali Süleyman", "Rəşid Pəhləvan", "Pəhləvan Müsəllim" kimi, "8712 nömrəli əsir" povestlərin, "Pəhləvanın taleyi" romanının, "Ötən illərin harayı" 4 cildlik seçilmiş publisistik əsərlərin, "Gürcüstan: ikili standart siyasətinin yeni qurbanı", "Qaytarılan köç karvanı" publisistik kitabların, habelə "Azərbaycan milli musiqi alətlərinin patentlə mühafizəsi", "Haaqa sistemi" adlı elmi-praktik əsərlərin müəllifisiniz.

Yubileyiniz münasibətilə Sizi bir daha təbrik edir, möhkəm cansağlığı, həyatda və yaradıcılığınızda uğurlar diləyirik!

**Azərbaycan Yazıçılar Birliyi**